# ÖLÜMSÜZLÜK ZİRVƏSİNDƏ

**ƏHMƏDOV ELÇİN**
*BDU, Kitabxanaşünaslıq kafedrasının müdiri, dosent*

Bəşər övladı dünyaya gəlişindən son mənzilə köçənədək kamillik zirvəsinə yüksəlir, qurub yaradır, cəmiyyətə fayda verir. İnsanın kamillik zirvəsinə yüksəlməsinin fövqündə əl tutmaq, məktəb yaratmaq, ziyalı ordusu yetişdirmək və sağlığında qiymətini almaq ölçülüb-biçilmiş bəşəri dəyərlərdir. Azərbaycanın elm, təhsil, mədəniyyət mühitinin korifey ziyalılarından olan mərhum Abuzər Alı oğlu Xələfov bu dəyərlərin nümunəvi daşıyıcısı olmuşdur. 2020-ci il aprel ayının 27-də ömrünün 89-cu yaşında dünyasını dəyişən A.Xələfov Azərbaycan kitabxanaşünaslıq elminin, kitabxanaçılıq-informasiya təhsilinin formalaşmasında misilsiz xidmətlər göstərərək böyük bir elmi məktəb yaratmışdır.

XX əsrin II yarısından müasir dövrədək Azərbaycan ziyalı mühitinin dəyərli etiketlərə malik olan nümunəvi ziyalılar var ki onlar yüksək işgüzarlıqla dövlətçiliyimizə uğurla xidmət edirlər. Bu gün Azərbaycanın ictimai-siyasi, elm, təhsil, mədəni həyatında tək-tək yaşlı nəslin nümayəndələrinə rast gəlinə bilər ki, kifayət qədər işgüzarlıqla dövlət və dövlətçiliyə xidmət göstərirlər. Bu gün yaşlı nəslin nümayəndələrinin elm, təhsil, mədəniyyət və digər sahələrdə fəaliyyət göstərən uzunmüddətli fəaliyyət sahəsində elmi məktəb yaradan, böyük uğurları olan ziyalılarımız ön cərgəyə dəvət olunurlar.

Prezident İlham Əliyevin çıxışlarında işgüzar və qabiliyyətli, yüksək dəyərlərə malik olan ziyalılara etimadla yanaşması böyük təcrübəyə malik ziyalılara cəmiyyətdə hər zaman ehtiyacın duyulmasının bariz nümunəsidir. 2019-cu il noyabr ayının 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə görkəmli ziyalı Abuzər Alı oğlu Xələfov Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə "Şərəf" ordeninə layiq görülmüşdü. Qeyd etmək lazımdır ki, Abuzər Xələfov XX əsrin II yarısından müasir dövrədək Azərbaycanın ictimai-siyasi, elm, mədəniyyət, təhsil və sosial həyatında işgüzar fəallıq göstərmiş və daim dövlət tərəfindən diqqət və qayğı ilə əhatə olunmuşdu. Həmçinin demək olar ki, sağlığında öz layiqli qiymətini almışdır. Əməkdar mədəniyyət işçisi, Əməkdar Elm Xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident Təqaüdçüsü, Şöhrət ordeni, Şərəf ordeni, BDU-nun Fəxri professoru kimi təltiflərə malik olmuş A.Xələfov ömrünün son anlarınadək öz zəngin təcrübəsini yaratdığı kitabxanaşünaslıq elmi məktəbinin yetirmələrinə öyrətməklə yanaşı, Bakı Dövlət Universitetində ali təhsilin müasir innovasiyalarla təmin olunması istiqamətində dəyərli tövsiyələr vermişdi. Daim əzmlə və işgüzarlıqla çalışan, dövlət başçısının yaşlı və işgüzarlığı olan insanların yeni yüksəliş illərində fəaliyyətə cəlb olunması çağırışlarına məmnunluqla əməl etmiş A.Xələfov XX əsrin II yarısından ali kitabxanaçılıq təhsilinin təşkilatçısı olmaqla yanaşı, kitabxanaşünaslıq elmi məktəbinin bünövrəsini qoymuş və bu elmi istiqamətdə 40-a yaxın alim ordusu yetişdirmişdir. Onun kitabxana informasiya fəaliyyətinə dair dərslikləri, sanballı monoqrafiyaları bu gün də kitabxana-informasiya ali təhsilinin formalaşmasına əhəmiyyətli təsir edir. Kitabxanaşünaslığın elmi-nəzəri məsələlərinin işlənməsi, Dövlət kitabxana siyasətinin tətbiqi məsələləri, kitabxana və informasiya proseslərinə texnoloji modelin tətbiqi, innovativ yanaşmalar hər zaman A.Xələfovun elmi fəaliyyətinin stimulverici parametrləri olmuşdu.





XX əsrin II yarısından ömrünün son günlərinədək A.Xələfovun elmi tədqiqat və tədris prosesinin təşkilindəki fəaliyyətinin, ali peşə təhsilinin təcrübi və elmi nəzəri məsələlərinin parametrlərinin müxtəlif ideoloji mərhələlərdə dövlət siyasətinin atributları ilə əlaqələndirilməsi alimin elmi fəaliyyətinin prioriteti sayılırdı. Görkəmli alimin bu istiqamətdə təşəbbüsü də daim maraqla qarşılanmışdır. Məsələn o, 1995-ci ildə may ayının 17-də "Azərbaycan" qəzetində "Milli dövlətçiliyimiz naminə" adlı məqalə ilə çıxış etmiş, milli ideologiyamızın, milli dövlətçilik ənənələrimizin əsas məğzini - özünün müxtəlif dairələrdəki çıxış, məruzə və nitqlərində əks etdirən Heydər Əliyevin əsərlərinin ayrı-ayrı məcmuələr və ya kitablar şəklində buraxılması təşəbbüsünü irəli sürmüş və onların respublikanın bütün tip kitabxanalarında yerləşdirilməsini təklif etmişdir.

Alimin yarım əsrlik pedaqoji fəaliyyəti dövründə demək olar ki, kitabxanaşünaslığa dair bütün fənlərin elmi-nəzəri məsələləri işlənmişdir. Onun nəşr etdirdiyi "Kitabxanaşünaslığa giriş", "Azərbaycanda kitabxana işinin tarixi", "Kitabxanaşünaslığın tarixi və metodologiyası", "Kitabxanaların kompüterləşməsinin əsasları" adlı dərsliklərində dövlət siyasi xəttinin ali peşə təhsilində motivləşməsini təmin etmişdir. Onun 2003-cü ildə Bakı Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə ölkəmizdə ilk dəfə olaraq "Dünyanın görkəmli dövlət xadimləri" seriyasından Azərbaycan Respublikasının dünya şöhrətli prezidenti H.Əliyevə həsr olunmuş biblioqrafik məlumat kitabı Azərbaycan dilində 5000, rus dilində 3000 və ingilis dilində 2000 nüsxə ilə çap edilməsi həm onun elmi əhəmiyyətinin miqyasını, həm kütləviliyini, həm də oxucu auditoriyasının genişliyini təsdiqləyir, eyni zamanda Heydər Əliyev şəxsiyyətinə və yaradıcı irsinə tükənməz marağın get-gedə daha da gücləndiyi faktiki sübuta çevrilir.

Alimin digər tədqiqatlarında qeyd etdiyimiz kimi, kitabxana quruculuğunun dövlət siyasəti məsələləri öz əksini geniş tapmışdır. Ümummilli Lider H.Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki mərhələdə dövlətin kitabxana siyasəti A.Xələfovun 2006-cı ildə 312 səhifəlik "H.Əliyev və Azərbaycanda kitabxana işi" adlı monoqrafiyasında öz əksini tapmışdır.

Qeyd etdiyimiz kimi, A.Xələfov 70 ilə yaxın bir müddətdə Azərbaycana ali kitabxanaçılıq təhsilinə kitabxanaşünaslıq elmi məktəbinə rəhbərlik etmək-

lə yanaşı öz fəaliyyətini daim dövlətçilik ənənələri ilə uyğunlaşdırmışdır. Dövlətə, dövlətçiliyə sədaqətlə xidmət, ictimai-siyasi, ideoloji prosesləri izləmək, təcrübi və nəzəri problemlərin tətbiqində əldə rəhbər tutmaq alimin fəaliyyət parametrlərinin əsas tezisinə çevrilmişdir.

A.Xələfov milli dövlətçiliyimizin tərəqqisində kitabxanaların rolunun əvəzsiz olduğunu öz məqalələrində, çıxışlarında dönə-dönə vurğulayırdı. Ümummilli Lider H.Əliyevin söylədiyi "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir" fikrini yüksək qiymətləndirən kitabxanaşünas alim öz elmi əsərlərində dəfələrlə vurğulamışdır ki, unudulmaz dövlət başçısının bu əvəzsiz fikri kitabxana-informasiya fəaliyyəti haqqında dövlət siyasətinin başlıca mühüm amilini təşkil edir.

Son dövrlərdə təhsil sistemində yeni standartların tətbiq edilməsi təhsilin qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırılması və bu sahədə aparılan islahat proqramlarının yerinə yetirilməsi sahəsindəki uğurlu fəaliyyəti bu gün kitabxana-informasiya fəaliyyətində özünü biruzə verir. Kitabxana-informasiya fəaliyyətinə kompüter texnika və texnologiyasının tətbiqi nəticəsində kitabxanaların sosial funksiyalarının daha da artdığını bildirən "Şərəf" ordenli alim hər zaman qeyd edirdi ki, məhz bu gün informasiya texnologiyalarının kitabxana-informasiya fəaliyyətinə tətbiqi innovativ iş metoduna çevrilir. Onun fikrincə, informasiya kitabxana müstəvisindən üfiqi istiqamətdə keçməli, onun bütün funksiyalarının inkişaf yolunu işıqlandırmalıdır.

A.Xələfovun elmi fəaliyyət parametrlərində dövlətin siyasi xəttində prioritet istiqamət olan multikulturalizm ideyalarının kitabxana-informasiya fəaliyyətində istiqamətlənməsi əsas və vacib yerlərdən birini tuturdu. Ümummilli Lider H.Əliyevin multikulturalizm sahəsindəki xidmətləri azsaylı xalqların məkanı olan Azərbaycanda məskunlaşan bütün xalqların firavan yaşamasına səbəb olmuşdur. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqaməti yeni mərhələdə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Dövlətin multikulturalizm siyasətinin parametrlərini əldə rəhbər tutan "Şərəf" ordenli Abuzər Xələfov qeyd edirdi ki, kitabxana-informasiya sahəsində multikulturalizmin təbliği dövlətin bu sahədə prinsiplərindən bəhrələnir. O, öz fikrini davam etdirərək bildirirdi ki, kitabxana-informasiya müəssisələrinin fondlarına digər xalqların dilində ədəbiyyatın daxil olması, multikultural ədəbiyyatın daxil olması və təbliği imkanlarının genişləndirilməsi, həmçinin kitabxana-informasiya əməkdaşlarının multikultural biliklərə yiyələnməsi kitabxanaların multikultural sahədə dövlət siyasətinin həyata keçirilməsinə stimul verir.





A.Xələfov daim dövlətimiz tərəfindən ona göstərilən etimadı uğurla doğrultmuşdur. Onun layiqli davamçıları bu gün elmi-tədqiqat istiqamətində əzmlə çalışırlar. A.Xələfovun alimlər ordusunun gənc üzvlərindən doktorantlar, dissertantlar onun dəyərli tövsiyələri ilə öz elmi-tədqiqat işlərini davam etdirirlər. Respublikamızın bu sahədə aparılan elmi-tədqiqat işləri məhz onun dəyərli tövsiyələri ilə uğur qazanır.

Dünya şöhrətli Prezident İ.Əliyevin Azərbaycanda bütün sahələrdə olduğu kimi mədəniyyət, təhsil, elm istiqamətinə qayğı ilə yanaşması, eyni zamanda ağsaqqal ziyalılara etimad göstərməsi və onların təcrübəsindən bəhrələnməsini təqdirəlayiq hal hesab etməsi Şərəf və Şöhrət ordenli, Əməkdar Elm xadimi A.Xələfovun hər zaman işgüzar fəaliyyətinə səmərəli stimul vermişdir.

Dövlətimiz tərəfindən onun elm, təhsil, mədəniyyət sahəsindəki xidmətləri sağlığında qiymətləndirilmişdir. Öz ölümü ilə ölümsüzlük zirvəsinə yüksəlmiş Abuzər Xələfov, dövlətimizin ona böyük sayqısı sayəsində 2-ci Fəxri Xiyabanda dəfn olunmuşdur. O, böyük bir məktəb qoyub getmişdir. Onun ideyaları və göstərdiyi istiqamət biz yetirmələrinin qarşısında məsuliyyətli vəzifələr qoyur. Onun yaradıb formalaşdırdığı kitabxanaşünaslıq elmi məktəbinin üzvləri onun ideyalarının uğurla davam etdirilməsinə əzmlə çalışacaqlar.